## Riyaziyyat

1. $z_1 = a - 3 - 3i$ və $z_2 = 4 + (b+1)i$ ədədləri qoşma kompleks ədədlər olarsa, *ab* hasilini tapın.
A) 6 B) 14 C) 12 D) 8 E) 10

2. *x* dəyişəninin hansı qiymətlərində -5x+13 ifadəsinin qiyməti 8-dən böyük ***deyil***?
A) [-1;1) B) [1;+∞) C) (- ∞;0)
D) (- ∞;-1] E) (0;+∞)

3. *a*-nın hansı qiymətində $x^2 - 3x + 2a - 3 = 0$ tənliyinin kökləri qarşılıqlı tərs ədədlər olar?
A) -3 B) 2 C) -1 D) -2 E) 0

4. $m$-in hansı qiymətində $\vec{a}\langle 4; m\rangle$ və $\vec{b}\langle 1; 2\rangle$ vektorları perpendikulyardır.
A) 2 B) $-2$ C) $-1$
D) 0 E) 1

5. $\begin{cases} 2x - (a-1)y = 4 \\ 3x - (a+2)y = 6 \end{cases}$ tənliklər sisteminin sonsuz sayda həlli olarsa, $a$-nı tapın.
A) 5 B) 6 C) 7 D) 8 E) 9

6. $x = \frac{\pi}{8}$ olarsa, $\frac{1-tan^2x}{2tanx}$ ifadəsinin qiymətini tapın.
A) 1,5 B) 0,5 C) 2 D) 1 E) 4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

7. Şəkildə $MN \parallel AC$, $\frac{BN}{NC} = \frac{3}{5}$ olarsa, $\frac{S_{AMNC}}{S_{ABC}}$ nisbətini tapın.




A) $\frac{49}{65}$ B) $\frac{5}{8}$ C) $\frac{55}{64}$
D) $\frac{3}{5}$ E) $\frac{9}{25}$

8. $\sqrt{2x+6} - \sqrt{x+3} = 0$ tənliyini həll edin.
A) 0 B) -3 C) -6
D) 2 E) 3

9. Bərabərtərəfli üçbucağın daxilindəki nöqtədən tərəflərə qədər məsafələr $2\sqrt{3}$, $3\sqrt{3}$ və $4\sqrt{3}$ olarsa, bu üçbucağın perimetrini tapın.
A) 18 B) 27 C) 36 D) 45 E) 54

10. xy müstəvisinə nəzərən A(2;-4;3) nöqtəsinə simmetrik olan nöqtənin koordinatlarını tapın.
A) (-2;4;3) B) (2;4;3) C) (-2;-4;3)
D) (2;-4;-3) E) (-2;-4;-3)

11. $\frac{a}{b} = \frac{2}{3}$, $\frac{b}{c} = \frac{1}{3}$ və $c - 2a - b = 3$ olarsa, $c - 3a$ ifadəsinin qimətini tapın.
A) 9 B) 8 C) 4,5
D) – 12 E) – 6,5

Time/Birlik Team1

12. Tərəfi $4\sqrt{3}$ sm olan bərabərtərəfli üçbucağın hündürlüyü ətrafında fırlanmasından alınan fiqurun həcmi neçə $sm^3$ olar?
A) $12\pi$ B) $16\pi$ C) $32\pi$
D) $24\pi$ E) $48\pi$

13. $3^{x-1} = \log_2 125 \cdot \log_5 8$ tənliyini həll edin.
A) 2 B) 6 C) 4 D) 3 E) 1

14. $(b^2+4b+5)^2+(a^2-6a+7)^2+3$ ifadəsinin ən kiçik qiymətini tapın.
A) 12 B) 14 C) 16
D) 4 E) 8

15. Diametri AB olan çevrədə AB=6 , $\angle A = 55°$, $\angle B = 65°$ olarsa, DC-ni tapın.




A) $2\sqrt{2}$ B) 4 C) $3\sqrt{3}$
D) 3 E) $2\sqrt{3}$

16. Sadələşdirin: $\frac{a^2-ab-12b^2}{a+3b}$
A) $a+12b$ B) $a-4b$ C) $a-6b$
D) $a-3b$ E) $a-2b$

17. Eyni məhsuldarlıqla işləyən 24 traktor müəyyən sahəni 15 günə şumlaya bilir.Traktorların sayını 25% artırsaq, həmin sahə neçə günə şumlanar?
A) 12 B) 10 C) 11 D) 13 E) 9

18. Bir sırada 5 nəfər əyləşib.Onlardan ikisi qızdır.Oğlanlar neçə üsulla yanaşı otura bilər?
A) 36 B) 72 C) 120
D) 60 E) 30

19. ABCD paraleloqramında AE tənböləndir.
DC= 5, EC=3 , $S_{ABCD} = 144$ $sm^2$ olarsa, $S_{AECD}$-ni tapın.




A) 99 B) 112 C) 96
D) 110 E) 84

20. $sin4x + sin6x = 0$ tənliyinin $\left[0; \frac{\pi}{2}\right]$ parçasındakı həllərinin sayını tapın.
A) 1 B) 2 C) 3 D) 4 E) 5

21. $m+n=63$ və $ƏBOB(m;n)=7$ olarsa, $mn$ hasilinin ən böyük qiymətini tapın.
A) 840 B) 1020 C) 560
D) 1050 E) 980

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
Time/BirlikTeam1

22. $\sqrt{(1+\sqrt{3})^2-4\sqrt{3}}-\sqrt{(1-\sqrt{3})^2+4\sqrt{3}}$ ifadəsini sadələşdirin.
A) 2 B) $-4$ C) $-2$ D) 4 E) $2\sqrt{3}$

**Açıq tipli test tapşırıqları:**

23. $\lim\limits_{x\to\infty}\dfrac{ax^2+4x-1}{bx^2-5}=\dfrac{3}{4}$ və $a+b=28$ olarsa, $a$-nı tapın.

24. Düz prizmanın oturacağı katetləri 8 və 6 olan düzbucaqlı üçbucaqdır. Bu prizmanın ən böyük üzü kvadrat olarsa, onun yan səthinin sahəsini tapın.

25. Kvadratın təpəsindən diaqonalına qədər məsafə $\sqrt{2}$ sm olarsa, onun perimetrini tapın.

26. $f(x)$ funksiyası tək funksiyadır. $f(x)-f(-x)=6x^3+2x+a-4$ olarsa, $f(1)+a$ cəmini tapın.

27. Ədədi silsilələr üçün uyğunluğu müəyən edin:
1. $a_2=3; d=2$
2. $a_n=5-n$
3. $a_n=3n+1$

a. $a_5=0$ b. $d=3$ c. $a_7=13$
d. $d=-1$ e. $a_5=16$

**Situasiya**

Mağazada kəsik konus formasında 6 eyni vedrə satılır.Vedrələrin ox kəsiyinin diaqonalları perpendikulyar, kiçik oturacağının radiusu 3,5 sm, böyük oturacağının radiusu isə 8,5 sm-dir.Vedrələrdən dördünün yan səthi sarı , ikisinin yan səthi isə qırmızı rəngdədir.

28. Bu formada vedrənin hazırlanması üçün ən azı neçə sm$^2$ dəmir lövhənin işləndiyini tapın.($\pi$=3)

29. Alıcı vedrələrdən ikisini təsadüfi olaraq seçir.Bu vedrələrin eynirəngli olması hadisəsinin ehtimalını tapın.

30. Satıcı vedrənin birini 25 manata satır.Vedrələrdən biri xarab olarsa, satıcı qalan vedrələrin qiymətini ən azı neçə faiz artırmalıdır ki, ziyan etməsin?

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

## Coğrafiya

31. Xəritə-sxemdə verilmiş regionlara uyğun gələn *monarxiya* idarəetmə formasına malik olan dövlətlər:




a. İordaniya b. Almaniya
c. İraq d. Niderland
e. Tailand

A) 1 – d; 2 – a; 3 – e B) 1 – d; 2 – c; 3 – e
C) 1 – b; 2 – a; 3 – c D) 1 – b; 2 – e; 3 – a
E) 1 – d; 2 – c; 3 – a

32. Azərbaycanın çay şəbəkəsi haqqında verilən fikirlərdən hansı ***səhvdir***?
A) Çayların hamısı Xəzər dənizi hövzəsinə aiddir
B) Çaylar coğrafi yerləşmə xüsusiyyətinə görə 4 qrupa bölünür
C) Çayların orta illik su axınının böyük hissəsi qonşu ölkələrdə formalaşır
D) Uzunluğu 500 km-dən çox olan iki çay var
E) Çay şəbəkəsinin sıxlığı dağlıqdan düzənliyə doğru artır

33. Zəif inkişaf etmiş ölkələrdə işsizliyin yaranma səbəblərinə aid ***deyil***:
A) Müharibələr
B) İqtisadi böhran
C) İnvestisiyaların azlığı
D) Yüksək texnologiyaların tətbiqi
E) Siyasi qeyri-sabitlik

34. Hansı sıralarda uyğunluq pozulmuşdur ?

| | **Çay** | **Aid olduğu hövzə** |
|---|---|---|
| 1 | İravadi | Atlantik okeanı |
| 2 | İli | Daxili axarsız |
| 3 | Amur | Sakit okean |
| 4 | Nil | Hind okeanı |
| 5 | Makkenzi | Şimal Buzlu okeanı |

A) 1, 4 B) 4, 5 C) 2, 5
D) 2, 3 E) 1, 3

35. Passat, qərb və musson küləklərinin hakim olduğu müvafiq ərazilər:




A) 2,6,3 B) 1,3,4 C) 3,5,6
D) 1,2,4 E) 2,5,1

36. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin .




a. Çoxmillətlidir, yerli əhali azlıq təşkil edir
b. İCESCO-nun üzvüdür
c. Neft-qaz ehtiyatına malikdir
d. Konstitusiyalı monarxiya ölkəsidir
e. Yarımada dövlətidir
f. Sahilləri iki okean suları ilə yuyulur

A) 1-e,f; 2-b,d; 3-a,c B) 1-c,d; 2-e,f; 3-a,b
C) 1-d,f; 2-a,b; 3-c,e D) 1-a,f; 2-b,c; 3-d,e
E) 1-c,d; 2-a,b; 3-e,f

37. Əsasən savanna və səhra zonalarından axan çay:
A) Missisipi B) Ob C) Xuanxe
D) Nil E) Volqa

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BinlikTeam1

38. İqlim tiplərini fiziki-coğrafi rayonlarla əlaqələndirin.
*a. Qışı quraq keçən soyuq iqlim tipi hakimdir*
*b. Yayı quraq keçən mülayim-isti iqlim tipi üstünlük təşkil edir*
*c. Yayı quraq keçən soyuq iqlim tipi hakimdir*
*d. Bütün fəsillərdə bol yağıntılı soyuq iqlim tipi mövcuddur*
*e. Qışı quraq keçən mülayim-isti iqlim tipi hakimdir*




A) 1 – d; 2 – a; 3 – e; 4 – b; 5 – c
B) 1 – c; 2 – b; 3 – e; 4 – a; 5 - d
C) 1 – b; 2 – a; 3 – c; 4 – d; 5 - e
D) 1 – c; 2 – e; 3 – a; 4 – b; 5 - d
E) 1 – d; 2 – c; 3 – a; 4 – b; 5 - e

39. Xallı maralların, dəmirağacı meşəliyinin və su-bataqlıq landşaftının qorunduğu müvafiq milli parklar:




A) 6, 2, 4 B) 6,5,8 C) 3,4,9
D) 8,1,2 E) 9,5,7

40. Düzgün ***olmayan*** coğrafi qanunauyğunluğu müəyyən edin:
A) Geniş düzənliklər litosfer tavalarının mərkəzi hissələrində yerləşir
B) Cavan dağlıq sahələr geosinklinal qurşaqlara uyğun gəlir
C) Yerin sutkalıq hərəkəti nəticəsində qütb gecə və gündüzləri yaranır
D) Geniş düzənliklərdə enlik zonallığı müşahidə olunur
E) Subtropik qurşaqda materiklərin qərbində codyarpaqlı həmişəyaşıl meşə və kolluqlar yerləşir

41. Ölkənin adı, yerləşdiyi yarımada və inzibati-ərazi quruluşunun müvafiq olaraq düzgün verildiyi sıralar:

| | | | |
|---|---|---|---|
| 1 | Bosniya və Hersaqovina | Balkan | Federativ |
| 2 | Malayziya | Hind-Çin | Unitar |
| 3 | BƏƏ | Ərəbistan | Federativ |
| 4 | Portuqaliya | Pireney | Unitar |
| 5 | Laos | Balkan | Unitar |
| 6 | İsveç | Skandinaviya | Federativ |

A) 2, 4, 6 B) 1, 3, 4 C) 3, 5, 6
D) 1, 2, 3 E) 2, 4, 5

42. Uyğunluğu müəyyən edin.




A) 1- Tayqa , 3- Ekvatorial meşə
B) 3- Dəyişkən rütubətli meşə , 5- Pampa
C) 1- Enliyarpaqlı meşə , 2- Savanna
D) 2- Çöl , 4- Savanna və seyrək meşə
E) 4-Səhra və yarımsəhra , 5- Selvas

43. Kasdağ və Hacıvəli yataqlarının yerləşdiyi fiziki-coğrafi vilayət:
A) Orta Araz B) Kür çökəkliyi
C) Kiçik Qafqaz D) Böyük Qafqaz
E) Lənkəran

44. Uyğunluğu müəyyən edin.




1. Atmosferin qapalı təzyiq sahəsidir
2. Tropik tipi böyük dağıdıcı qüvvəyə malik olur və qərb istiqamətində hərəkət edir
3. Atmosferin ümumi sirkulyasiyasında iştirak edir
4. Havanın qalxan hərəkəti nəticəsində buludluluq artır, yağıntı düşür
5. Külək cənub yarımkürəsində saat əqrəbinin əksi istiqamətdə hərəkət edir, mərkəzində isə hava tam sakit olur
6. Hava quru, açıq və buludsuz olur

A) I-5, 6; II-2, 4; III-1, 3
B) I-2, 5; II-1, 4; III-3, 6
C) I-1, 4; II-2, 5; III-3, 6
D) I-3, 6; II-2, 5; III-1, 4
E) I-3, 5; II-1, 4; III-2, 6

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

45. Doğru fikirləri seçin.
1. Ən duzlu dəniz Qırmızı dənizdir
2. Ən böyük körfəz İran körfəzidir
3. Ən isti okean Sakit okeandır
4. Ən hündür qabarma dalğası Fandi körfəzində müşahidə edilir
5. Dünyanın ən böyük artezian hövzələri Orta Sibir və Qərbi Avstraliyada yerləşir
6. Ən dərin göl Xəzər dənizidir

A) 1,4,5 B) 3,4,5 C) 1,3,4
D) 2,3,6 E) 1,2,6

46. Sxemə əsasən nisbi rütubətliliyi hesablayın.




A) 30 % B) 60 % C) 70 %
D) 40 % E) 20 %

47. $20^0$ şm. e. və $50^0$ ş.u -da yerləşən məntəqəyə günorta vaxtı günəş şüalarının maksimum düşdüyü vaxt Bakı şəhərinə günəş şüaları neçə dərəcə bucaqla düşər ?
A) $70^0$ B) 63,5° C) $23,5^0$
D) 73,5° E) 60°

48. Uyğunluğu müəyyən edin.
I- Yura
II- Paleogen
III- Antropogen




A) I-1, 6; II-4, 5; III-2, 3
B) I-2, 5; II-1, 4; III-3, 6
C) I-1, 4; II-2, 5; III-3, 6
D) I-3, 6; II-1, 5; III-2, 4
E) I-3, 6; II-1, 4, III-2, 5

49. Aşağıdakı xüsusiyyətlər hansı materikə aiddir ?
**-** *Qərb ucqar nöqtəsi subtropik iqlim qurşağında yerləşir*
*- Dünyanın ən böyük axarsız (daxili) hövzə çayı burada yerləşir*
A) Şimali Amerika B) Avstraliya
C) Avrasiya D) Afrika
E) Cənubi Amerika

50. İnsan İnkişaf İndeksi (İİİ) yüksək olan ölkələr üçün səciyyəvi olan xüsusiyyəti seçin.
A) Savadlılıq səviyyəsinin aşağı olması
B) Orta ömür müddətinin qısa olması
C) Tibbi xidmətlərin keyfiyyətinin yüksək olması
D) İqtisadiyyatda kənd təsərrüfatının payının yüksək olması
E) Əhalinin əksəriyyətinin kəndlərdə yaşaması

51. Lənkəran çayının mənsəbindən mənbəyinə doğru dəyişən landşaft tiplərini müəyyən edin.
A) düzən-meşə, dağ meşə, dağ-çöl
B) yarımsəhra, dağ-meşə, dağ-çəmən
C) dağ-çöl, dağ-meşə, subalp və alp çəmənləri
D) yarımsəhra, dağ-çöl, dağ-meşə, dağ-çəmən
E) dağ-çöl, dağ-meşə, subnival, nival

52. Coğrafi ifadələrdən hansılar doğrudur ?
1. La - Plata, Qərbi Sibir, Mesopotamiya, Turan akkumulyasiya düzənlikləridir
2. Baskunçak, Acınohur, Tanqanika, Cenevrə şorsulu göllərdir
3. Qırmızı, Qara, Aralıq və Baltik dənizləri daxili dənizlərdir
4. Kuril, Şri-Lanka, Havay və Azor adaları divergent zonada yerləşirlər
5. Karpat, Qafqaz, Krım, Hindiquş dağları Alp-Himalay geosinklinal qurşağında yerləşır
6. Peru, Kurosio, Qərbi Avstraliya, Anqola soyuq cərəyanlardır

A) 1, 2, 5 B) 1, 3, 5 C) 1, 4, 6
D) 2, 3, 5 E) 3, 4, 5

**Açıq tipli test tapşırıqları:**

53. Böyük Kirs dağının zirvəsində havanın temperaturu –9°C, dağın yamacında A nöqtəsində isə -3°C-dir. A nöqtəsinin mütləq hündürlüyünü metrlə hesablayın.

54. Əhali sayının azalmasına görə türk dövlətlərini ardıcıl düzün.
1. Qazaxıstan 2. Özbəkistan
3. Qırğızıstan 4. Azərbaycan

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

55. Həqiqi sahəsi 2600 km² olan Quba rayonu xəritədə 104 sm² -lə göstərilmişdir. Bu xəritədə Quba şəhəri ilə Bakı arasında məsafə 34 sm –dir. Şəhərlər arasındakı həqiqi məsafənin neçə km olduğunu hesablayın.

56. Coğrafi təbəqənin inkişafının müasir mərhələsi üçün xarakterikdir :
1. insanın ətraf mühitə təsirinin artması
2. bitki örtüyünün inkişafı
3. intensiv yağışların yağması
4. ekoloji problemlərin yaranması
5. antropogen landşaftların sahəsinin artması
6. sərbəst oksigenin az, karbonun isə çox olması

57. Qidalanma mənbələrinə uyğun gələn çaylar:
1. Yağış suları
2. Qar və buzlaq suları
3. Yeraltı sular
a. Böyük Qafqazın şimal-şərq yamacı çayları
b. Abşeron-Qobustan çayları
c. Vulkanik yayladan başlanan çaylar

**Situasiya**

***Sizə təqdim olunmuş şəkil-sxemə əsasən 58 - 60 –cı sualları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***




58. Təsvir olunan fiziki-coğrafi vilayəti və vilayətin fiziki-coğrafi rayonlarını cədvəldə qeyd edin.

| Fiziki-coğrafi vilayət | Fiziki-coğrafi rayonlar |
|---|---|
| | 1- |
| | 2- |
| | 3- |
| | 4- |
| | 5- |

59. Vilayət üçün səciyyəvi olan əsas iqlim və landşaft tiplərini, təbiəti mühafizə obyektlərini qeyd edin.

| Əsas iqlim tipləri | Landşaft tipləri | Təbiəti mühafizə obyektləri |
|---|---|---|
| | | |

60. a) Geoloji eralara uyğun gələn fiziki-coğrafi rayonların adını cədvəldə qeyd edin.

| Əsasən Kaynazoy yaşlı süxurlar yayılmışdır | Əsasən Mezozoy yaşlı süxurlar yayılmışdır | Həm Mezozoy həm də Kaynazoy yaşlı süxurlar yayılmışdır |
|---|---|---|
| | | |

b) Vilayətdə filiz yataqlarının yerləşdiyi fiziki coğrafi rayonu və yataqların adını qeyd edin

| Filiz yataqlarının yerləşdiyi fiziki-coğrafi rayon | Filizin adı və yataqları |
|---|---|
| | |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Tarix

61. İbtidai icma quruluşunun e.ə XII – VIII minilliklərini əhatə edən dövr üçün xarakterikdir:
1. Qobustan sakinlərinin ovçuluq və yığıcılıq ilə məşğul olması
2. Əhalinin böyük bir hissəsinin oturaq həyata keçməsi
3. Metallurgiyanın meydana gəlməsi
4. Toxa əkinçiliyinin inkişaf etməsi
5. İnsanların maddi nemətlər istehsal etməyə başlaması
A) 1,5 B) 2,3,4 C) 1,3,4
D) 1,4 E) 2,3,5

62. Parisdə Krım müharibəsinin nəticələrinə həsr olunmuş sülh konfransına ***aid deyil:***
A) Qara dəniz bütün dövlətlərin hərbi gəmilərinə qapalı elan edildi
B) Rusiya Qara dənizdə hərbi donanma saxlamaq hüququnu itirdi
C) Vyana konqresindən sonrakı güc tarazlığı yenidən nizama salındı
D) Balkan yarımadası və Osmanlı ərazi bütövlüyü konfransın iştirakçısı olan Avropa dövlətlərinin ortaq təminatı altına alındı
E) Qars, Ərdəhan, Batum, Rusiyaya ilhaq edildi

63. Türk qoşunları tərəfindən ingilis ordusunun məğlub edildiyi döyüş:
A) Yutlandiya B) Somma
C) Marna D) Kutül – Amarə
E) Sarıqamış

64. Azərbaycanın 80-90-cı illərində baş vermiş hadisələrin xronoloji ardıcıllığını müəyyən edin:
1. "Azərbaycan Respublikası Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi
2. Əbdürrəhman Vəzirovun Birinci katib vəzifəsinə təyin edilməsi
3. "Azərbaycan SSR-in suverenliyi haqqında Konstitusiya Qanunu" qəbul edilməsi
4. Prezident vəzifəsinin təsis edilməsi
A) 4,3,2,1 B) 1,3,4,2 C) 2,3,4,1
D) 3,4,2,1 E) 4,1,3,2

65. Quba və Lənkəran xanlıqları üçün ümumi cəhət:
A) "Bayat savaşı"da iştirak
B) Qarabağ xanlığından asılılığın qəbul edilməsi
C) "Andlı öhdəlik" sənədinin imzalanması
D) I Rusiya – İran müharibəsi illərində ləğv edilmələri
E) Gülüstan müqaviləsinə görə Rusiya tərəfindən işğalının tanınması

66. Verilən xüsusiyyətlərin aid olduğu Azərbaycan şəhərini müəyyən edin:
- *Bir müddət Şəmsəddin Eldənizin iqamətgahı bu şəhərdə yerləşirdi.*
- *Rüstəm padşah Baysunquru bu şəhərdə məğlub etmişdi.*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

67. Qaraqoyunlu dövlətinə ***aid deyil:***
A) Gürcü çarı Konstantinin məğlub edilməsi
B) Ordunun əsasının elatlardan toplanan döyüşçülərdən təşkil edilməsi
C) Mərkəzləşmiş dövlətin qurulması
D) Teymuri Əbu Səid ilə müqavilə bağlanması
E) Baharlı sülaləsi tərəfindən idarə edilməsi

68. XV əsrdə inşa edilmiş memarlıq nümunəsidir:
A) Şeyx Cüneyd məqbərəsi
B) Əlincə çayı üzərində körpü
C) Bakının şərq darvazaları
D) Həşt-Behişt saray kompleksi
E) Ordubad şəhərində örtülü bazar

69. II Aleksandrın təhkimçiliyin ləğv edilməsi barədə verdiyi "Əsasnamə"yə ***aid deyil:***
A) Təhkimli kəndlilər şəxsi azadlıq əldə etdilər
B) Kəndlilərə əmlaka sahib olmaq hüququ verildi
C) Kəndli pay torpağını əldə etmək üçün dövlətdən aldığı borcu 49 ilə qaytarmalı idi
D) 1861-ci ildə qəbul edildi
E) 21 yaşına çatan və hərbi xidmətə yararlı olan bütün kişilər orduya çağırıldı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam1

70. Tarixi hadisələri xəritədə rəqəmlər ilə işarələnmiş xanlıqlara uyğunlaşdırın:




a. Gilgilçay üzərində rus qoşununu məğlub etdi
b. Kürəkçay müqaviləsini imzaladı
c. 1806-cı ildə ləğv edilərək Rusiyanın əyalətinə çevrildi
d. Sərdarabad döyüşü nəticəsində ruslar tərəfindən tutuldu
A) 1-a; 2-b; 3-c; 4-d
B) 1-b; 2-d; 3-c; 5-a
C) 2-d; 4-a; 3-b,c; 5-d
D) 1-a,b; 2-d; 3-c; 4-a
E) 3-b; 4-d; 1-c; 5-a

71. Uyğunluğu müəyyən edin:

**Azərbaycan 20-30-cu illərdə**

| **1.** Sənayeləşdirmə | **2.** Yeni iqtisadi siyasət |
|---|---|
| a. Ərzaq sapalağı ləğv edildi<br>b. Nuxa istilik elektrik stansiyasının tikintisi başa çatdı<br>c. Xırda kəndli təsərrüfatı ümumi təsərrüfatlarda birləşdirildi | a. Bakıda və Tovuzda sement zavodu işə başladı<br>b. Kəndlilərdən ərzaq vergisi yığılmağa başladı<br>c. Taxıl ticarəti dövlət inhisarına alındı |

A) 1-b; 2-a,b B) 1-a,c; 2-b C) 1-c; 2-a
D) 1-c; 2-a,b E) 1-b; 2-a

72. Azərbaycanın İkinci Dünya Müharibəsi illəri tarixinə ***aid deyil:***
A) İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilməsi
B) Dünya tarixində ilk dəfə neft sisternlərin gəmilərin arxasına bağlanaraq daşınması
C) Yüksəkoqtanlı aviasiya yanacağının hazırlanması
D) Pasport sisteminin tətbiq edilməsi
E) 77-ci diviziyanın yenidən komplektləşdirilməsi

73. Manna dövlətinin mövcudluğu dövrünə aiddir:
A) Astiaqın zərdüşt kahinləri sayılan maqlar ilə yaxınlaşması
B) Midiyanın Assuriya əsarətindən azad olması
C) Assurların Şuşarra vilayətini itirməsi
D) III Daranın öldürülməsi
E) Azərbaycanın şimalında müstəqil dövlətin yaranması

74. Eyler – Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. Repressiya illərində cəzaya məruz qalanlara bəraətverme prosesi başladı
b. Azərbaycan Kommunist Partiyası MK-nin birinci katibi seçilmişdi
c. Bakının beynəlmiləl şəhər kimi Azərbaycanın tərkibindən çıxarmaq planı pozuldu
d. Bakı Məişət Kondisionerləri zavodu tikildi
A) 1-a; 2-c,d; 3-b B) 1-b,c; 2-d; 3-a
C) 1-a,c; 2-d; 3-b D) 1-d; 2-b; 3-a
E) 1-b; 2-c; 3-d

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

TimeBirlikTeam1

75. Xəritədə ulduz ilə işarələnmiş qədim dövlətin tarixinə aid xüsusiyyətləri müəyyən edin:



1. “Qırmızıqaşlılar” üsyanının baş verməsi
2. E.ə II yüzillikdə dünya ticarət yollarına çıxış əldə etdi
3. İrsi hüquq və vəzifələri olan insan təbəqələri – kastalar mövcud idi
4. E.ə II yüzillikdə ayrı-ayrı dövlətlərə parçalandı

A) 3,4  B) 1,3  C) 2,4
D) 1,4  E) 1,2

76. *İslam mənbələrində Əfrasiyab sülaləsi kimi tanınırdılar. İslam dinini ilk qəbul edən dövlətlərdən biri olmuş, islamın rəsmi din kimi qəbul edilməsi ilə Türküstan ərazisində yaşayan əhalinin böyük əksəriyyəti bu dini qəbul etmişdi.*
Mətndə bəhs edilən dövlət ilə Səlcuq imperatorluğu üçün oxşar cəhət:
1. Dövlətin iki hissəyə parçalanması
2. XIII əsrin əvvəllərində süquta uğramaları
3. Qarakitaylar ilə mübarizə
4. Bizansın məğlub edilməsi

A) 1,3  B) 1,2  C) 3,4
D) 2,4  E) 2,3

77. Uyğunluğu müəyyən edin:




A) 3,6  B) 2,5  C) 2,6  D) 1,4  E) 1,2

78. Səfəvilər dövlətinin XVI əsrin 70-ci illəri və XVIII əsrin 30-cu illəri tarixinə aid oxşarlığı müəyyən edin:
A) Osmanlı qoşunları üzərində qələbə qazanılması
B) Rusiya ilə müqavilə imzalanması
C) Car - Balakəndə üsyanın yatırılması
D) Azərbaycan adlı əyalətin yaradılması
E) Xəzərboyu ərazilərin Rusiyanın əlinə keçməsi

79. Səbəb – nəticə əlaqələrinin doğru göstərildiyi bəndləri müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| 1 | Katoliklər ilə protestantlar arasında mübarizə | “Otuzillik” müharibənin başlanması |
| 2 | Osmanlının Kiçik Asiya və Suriyadan keçən ticarət yollarını öz əlinə alması | Şərqə doğru xaç yürüşlərinin başlanması |
| 3 | Lüterin fikirlərinin “95 tezis” adı ilə çap edilməsi | Almaniyada indulgensiya alverinin genişlənməsi |
| 4 | Auqsburq sülhünün imzalanması | Almaniyada dini müharibəyə son qoyulması |
| 5 | XVI yüzillikdə odlu silahların hazırlanması | Feodal cəngavər süvarisini odlu silahlı muzdlu ordunun əvəz etməsi |

A) 1,2,3  B) 2,3,4  C) 1,4,5
D) 2,4,5  E) 1,2,5

80. ABŞ ilə İngiltərə arasında 1783-cü il müqaviləsinin imzalandığı dövlət:




A) 1  B) 2  C) 3  D) 4  E) 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

81. “Müqəddəs Birlik” ilə aparılan müharibələr nəticəsində məğlub olan Osmanlı imperiyası:
1. Kiçik Qaynarca sülh müqaviləsini imzaladı
2. Krım xanlığını itirdi
3. Strateji əhəmiyyəti olan Kipr adasını itirdi
4. “Durğunluq” dövründən “geriləmə” dövrünə qədəm qoydu
5. Mərkəzi Avropadakı ərazilərin çox hissəsini qalib dövlətlərə güzəştə getməli oldu
A) 4,5 B) 1,2 C) 1,3,4
D) 2,3,5 E) 1,5

82. Bəndlərdən biri Vaşinqton konfransının nəticələrinə aiddir:
A) Mandat sistemi ilə torpaqların bölüşdürülməsi
B) Dəniz silahlarının məhdudlaşdırılması haqqında müqavilə
C) Millətlər Cəmiyyətinin yaradılması
D) Elzas və Lotaringiyanın Fransaya qaytarılması
E) ABŞ-nin MİllətlərCəmiyyətinə daxil olması

**Açıq tipli test tapşırıqları:**

83. Almaniya və SSRİ -yə aid ümumi cəhətlər:
1. Mandat sistemi əsasında torpaqlarının bölüşdürülməsi
2. Brest – Litovsk sülhünün bağlanması
3. Millətlər Cəmiyyətinə daxil edilmələri
4. “Molotov – Ribbentrop paktı”nın imzalanması

84. Hadisə - nəticə əlaqələrinin ***doğru*** göstərildiyi cavabı müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | Heysam ibn Xalid özünü müstəqil hakim elan etdi | Haşimilər sülaləsi hakimiyyətə gəldi |
| 2 | Yusif ibn Əbu Sac hakimiyyətə gəldi | Sacilər dövləti xilafətin asılılığından çıxdı |
| 3 | Sultan Toğrul Təbrizi tutdu | Rəvvadilər müstəqilliklərini itirdi |
| 4 | Didqori döyüşü baş verdi | Tiflis müsəlman əmirliyi ləğv edildi |
| 5 | Şəddadilərin ərazisində oğuz türkləri məskunlaşdı | Səlcuq dövləti ilə münasibətlər kəskinləşdi |

85. II Rusiya – İran müharibəsi dövrünə uyğun gəlir:
1. Zəyəm döyüşündə Qacar qoşununun məğlubiyyəti
2. Sultanbud döyüşü
3. Cavanbulaq və Sərdarabad döyüşləri
4. Urmiya və Ərdəbilin ruslar tərəfindən işğalı
5. Şamaxı xanlığının ləğv edilməsi

86. I Mətndə verilən prosesdən fərqli olaraq II Mətndə bəhs edilən proses üçün xarakterikdir:
**Mətn-1**
*Tiryək ticarətinin qadağan edilməsi, əcnəbi tacirlərdən bu zərərli məhsulun idxalı və ixracı ilə məşğul olmayacaqları barədə iltizam tələb edilməsi İngiltərə ilə münasibətləri pisləşdirdi*
**Mətn-2**
*İngilis müstəmləkəçiliyi əleyhinə üsyan başlayır. Sıravi əsgərlərin yeni patronların istifadəsindən imtina etməsi üsyana bəhanə oldu. Döyüş zamanı əsgərlər inək və donuz piyi ilə yağlanmış bağlamanı dişləri ilə cırmalı idilər. Bu da onların dini inancına zidd idi.*
1. İngilislər tərəfindən məğlub edilmələri
2. Böyük Moğol dövlətinə rəsmən son qoyulması
3. Nankin sülh müqaviləsinin imzalanması
4. İngilis – Çin münasibətlərinin pisləşməsi
5. Sipahilərin məğlub olması

87. Uyğunluğu müəyyən edin:
*XIX yüzilliyin birinci yarısında:*
1. ABŞ
2. Böyük Britaniya
3. Fransa
a. Vaterloo döyüşündə məğlub oldu
b. Dünyada ilk dəmir yolu çəkildi
c. Kanadaya dominion hüququ verdi
d. “Monro doktrinası” irəli sürdü
e. “Homstedlər” haqqında qanun qəbul edildi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

InfoBirlikTeam1

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

Restavrasiya kraldan daha çox, parlamentin təmsil etdiyi birləşmiş sinfin restavrasiyası idi. Parlament kral tərəfindən çağırılmamışdı, əksinə, parlament kralı çağırmışdı. Klarendon 1661-ci ildə İcmalar Palatasına demişdi: "Millətin içindən seçilə biləcək ən zəngin və ən müdrik şəxslər tərəfindən təmsil olunmaq İngiltərənin sıravi xalqının imtiyazı və üstünlüyüdür. İyirmi il sonra II Çarlz demişdi: "Monarxiyanın təhlükəsizliyi və ləyaqəti olmadan nə dini, nə də mülkiyyəti qorumaq olar." Bu restavrasiya sadəcə kralın qayıdışı deyil, həm də torpaq sahibi olan zadəganların öz hakimiyyətini qanuni şəkildə möhkəmləndirməsi idi. II Çarlzın oğlu Monmutun üsyanından sonra II Ceyms ordunun sayını artırmaq qərarına gəldi. Bu ordunun zabitləri onun etibar etdiyi adamlardan, yəni əsasən katoliklərdən ibarət olmalı idi.

88. Mənbədə bəhs edilən restavrasiyanı həyata keçirən parlamentin ilk qərarını tarixi biliklərinizə əsasən müəyyən edin:

89. Mənbədə bəhs edilən kralın hakimiyyətə gələrkən verdiyi vədləri tarixi biliklərinizə əsasən müəyyən edin: (azı iki vəd)

90. Mənbədə bəhs edilən II Ceymsin hakimiyyətdən uzaqlaşdırılmasının səbəbini tarixi biliklərinizə əsasən müəyyən edin.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

TimeBirlikTeam1